# Kampaniya hesabatı

**15 noyabr 2023**

# “Xoşbəxt ayaqlar” kampaniyası

Bu kampaniya çərçivəsində Astara, Masallı, Lerik, Yardımlı və Zərdab rayonlarının kəndlərində yaşayan **517 balaca dostumuz** ayaqqabılar ilə təmin edilmişdir.

“Təhsil almaq motivasiyası ilə onlar öz evlərindən məktəblərinə kimi piyada saatlarla yol gedir və ya qonşu kəndlərə üz tutmalı olurlar. Yağışlı və qarlı havalarda onların ən yaxın dostları isə keyfiyyətli ayaqqabıları ola bilər. Ayaqları isti, səhhətləri yaxşı olsun ki, dərslərinə də daha diqqətlə yanaşa bilsinlər.” - deyib 21 avqust tarixində kampaniyanın elanını verdik və 10 sentyabr tarixinə qədər maliyyə qəbulunu davam etdirdik.

Kampaniyanın hədəf rayonları Astara, Masallı, Lerik və Yardımlı rayonları idi, lakin həmin rayonlardakı səfərimiz başa çatanda növbəti rayonu əhatə edə biləcək qədər ayaqqabılarımız, müəyyən qədər maliyyəmiz qalmışdı. Bu səbəbdən də, Zərdab rayonundakı aztəminatlı ailələrdən olan uşaqlar seçildi.

| Rayon | Kəndlər | Uşaq sayı | Səfər tarixi |
|---|---|---|---|
| Masallı | Məmmədoba, Türklə, Tiyaqani, Kubin, Dico, Nəzəroba, Miyankü. | 72 nəfər | 18 sentyabr |
| Astara | Anboba, Asxanakəran, Bəlbay, Bursut, Daster, Əzərüd, Motlayataq, Rvadıla, Sığadul, Təzəkənd, Tülkükənd, Tüləküvan, Toradi, Diqoli, Reqloba, Hamoşam. | 167 nəfər | 19-20 sentyabr |
| Lerik | Göydərə, Aşağı Tikəband, Peştətük, Arta, Bilnə, Ağçay, Loda, Vijakr, Əliabad, Csorçay, Digah, Mistan, Şivlə, Osyodərə, Çeşman, Rəzgov, Kirəvud, Hamarat, Təngəbin, Cəynəvud, Siyəreğon, Kornədi, Soru. | 127 nəfər | 21-22 sentyabr |
| Yardımlı | Keçələkəran, Əfcədulan, Separadi, Vərgədüz, Telavar, Qabaqdibi, Odrağaran, Anzov, Kürəkçi. | 84 nəfər | 23-24 sentyabr |
| Zərdab | Dəkkəoba, Çallı, Pərvanlı, Gəlmə, Qoşaoba. | 67 nəfər | 29-30 sentyabr |

**Uşaqların siyahısı ilə tanış olun:**
https://docs.google.com/spreadsheets/d/1rypzu3AI2IU7TUChjlUtYuI7upmoecbG/edit?usp=sharing&ouid=114646767397365173390&rtpof=true&sd=true

## Maddi dəstəkçilər

Qeyd edək ki, kampaniyaya yüzlərlə fərdi şəxs və bir təhsil müəssisəsinin şagirdlərinin ailələri maddi dəstək göstərmişdir.

| Dəstəkçi | Ödənilən məbləğ |
|---|---|
| Azərbaycan Beynəlxalq Məktəbi (TISA) | 2700 |
| Fərdlərin dəstəyi | 12392 |
| **Toplam** | **15092 AZN** |

## İanə edilən ayaqqabılar

| Müəssisə / Şirkət adı | Say |
|---|---|
| Azərbaycan Beynəlxalq Məktəbi (TISA) | 100 ədəd |
| Baku Electronics | 51 ədəd |
| “LU-MUN” Holding | 42 ədəd |
| “Yüksəliş” müsabiqəsi | 23 ədəd |
| Fərdi sahibkar | 11 ədəd |

## Alınan məhsullar üçün xərc

| Məhsul | Say | Son ödəniş | Qəbz | Xüsusi qeyd |
|---|---|---|---|---|
| Ayaqqabı (FLO) | 177 | 9288 | Var | Məhsullara 20-25 % endirim etdilər və 550 AZN də şirkət qarşıladı. |
| Ayaqqabı (Bottelli) | 26 | 910 | Kartdan çıxarış var. | |
| Ayaqqabı (Binə - Qadın) | 24 | 910 | Var | 5-10 % endirim etdilər. |
| Ayaqqabı (Binə - Kişi) | 13 | 364 | Var | 25 % endirim etdilər. |
| Kraft paket (1 üzü rəngli çapla) | 450 | 450 | Var | |

| | | | | |
|---|---|---|---|---|
| Corab (Binə - Ekinoks) | 388 | 329 | Var | Endirim etdilər. 108 AZN-i isə həmin mağazaya topdan mal verən Sərvan bəy qarşıladı. |
| Könüllülərin qidalanması + dəftərxana xərcləri | 1 | 25 | Yoxdur | Sentyabrın 16-sı ayaqqabılar paketlənəndə. |
| Ayaqqabı qutularının qoyulması üçün paketlər və skoçlar | 1 | 20 | Yoxdur | Sentyabrın 16-sı ayaqqabılar paketlənəndə |
| Ayaqqabı (Astara kəndləri üçün) | 4 | 110 | Yoxdur | Lənkərandan aldıq, məqsədi bildikdə 20 % endirim etdilər. |
| Ayaqqabı (Yardımlı kəndləri üçün) | 6 | 135 | Var | Ümumi məbləğdə çox endirim etdilər və 1 ayaqqabını da əlavə ianə etdilər. |
| Ayaqqabı (Lerik kəndləri üçün) | 2 | 59 | Kartdan çıxarış var. | Lerikdəki könüllümüz Mübariz İmanov aldı. |
| Ayaqqabı (Binə - Zərdab üçün) | 29 | 492 | Var | Əlavə 2 mağazaya da onların vasitəsilə getdik. |
| Binədən ayaqqabıların gətirilməsi üçün taksi xərci | 1 | 17 | Yoxdur | |
| Astarada ayaqqabı tayları fərqli çeşid çıxan uşaq üçün. | 1 | 50 | Kartdan çıxarış var. | Astaradakı könüllü İbrahim Həsənzadə aldı. Nəqliyyat xərclərini də nəzərə almışıq. |
| Ayaqqabı (Lerikdə ayaqqabıları çıxmayan uşaqlar üçün.) | 6 | 160.5 | Var | Lerikdəki könüllümüz Mübariz İmanov aldı. |
| | | **13319.5** | | |

## Səfər xərcləri

| Məhsul | Say | Ödəniş | Qəbz | Xüsusi qeyd |
|---|---|---|---|---|
| Ayaqqabıların regionlara daşınması üçün yük maşını | 1 maşın | 480 | Var | |
| Qidalanma (Masallı) | 2 nəfər | 18 | Yoxdur | |

| | | | | |
|---|---|---|---|---|
| Qonaqlama (Lənkəran) | 1 gün * 2 nəfər | - | | "PMD Group" şirkəti xərcləri qarşılamışdır. |
| Qidalanma (Lənkəran) | 1 gün * 2 nəfər | 31.45 | Var | |
| Qonaqlama (Lerik) | 2 gün * 2 nəfər | 180 | Var | Nağd ödəniş edilib. |
| Qidalanma (Lerik) | 2 gün * 2 nəfər | 103 | Yoxdur | Nağd ödəniş edilib. |
| Qonaqlama (Astara) | 1 gün * 2 nəfər | - | | Könüllülərin evində qalınmışdır. |
| Qidalanma (Astara) | 1 gün * 2 nəfər | 42.8 | Yoxdur | Nağd ödəniş edilib. |
| Qonaqlama (Yardımlı) | 1 gün * 2 nəfər / 1 gün * 3 nəfər | 125 | Var | |
| Bakı - Yardımlı - Bakı (Könüllülərin gəlişi) | 2 nəfər | 240 | Kartdan çıxarış var. | |
| Bakı - Lerik - Yardımlı (Könüllünün nəqliyyat xərci) | 1 nəfər | 40 | Kartdan çıxarış var. | |
| Lerikdəki ayaqqabıların kəndə göndərilməsi | 6 uşaq | 8.5 | Yoxdur | |
| Qidalanma (Yardımlı) | 1 gün * 2 nəfər / 1 gün * 5 nəfər / 1 gün * 3 nəfər | 115 | Var | Nağd ödəniş edilib. |
| Qonaqlama (Lənkəran) | 1 gün * 3 nəfər | - | Var | 85 AZN məbləğ "Qızlar oxusun" layihəsi hesabından qarşılandı. |
| Qonaqlama (Zərdab) | 1 gün * 2 nəfər | 30 | Yoxdur. | Nağd ödəniş edilib. |
| Benzin | | 360 | 80 % var. | Maşın könüllümüzə məxsus olduğu üçün nəqliyyatın ancaq benzin zərcini qarşıladıq. |

**1773.75**

**Kampaniya müddətində toplanan məbləğ:** 15092 AZN

**Toplam xərc:** 15093.25 AZN *(Köçürmələr və nağdlaşdırma zamanı çıxılan komissiyalar nəzərə alınmamışdır.)*

**Kart hesabından çıxarış və qəbzlərlə tanış olun:**
https://drive.google.com/drive/folders/1sWeBJXyVsZ2_ebfKgL6p3Xs_xuxsUiRX?usp=sharing

**Foto və video materiallar ilə aşağıdakı sosial media hesablarında tanış ola bilərsiniz:**

- ✓ "Təhsilə davam" hesabı: https://www.instagram.com/tehsiledavam.az/
- ✓ "Biz birlikdəyik" hesabı: https://www.instagram.com/bizbirlikdeyik/

Dəstəyiniz və inamınız üçün komandamız adından minnətdarlığımızı bildiririk!

**Hörmətlə,**

**"Təhsilə davam" və "Biz birlikdəyik" komandaları**